17 oktyabr
Füzuli Şəhəri Günüdür



# Ən müasir şəhərlərdən biri

*Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən hər il 17 oktyabr ölkəmizdə Füzuli Şəhər Günü kimi qeyd edilir. Həmin tarix İkinci Qarabağ müharibəsində Füzuli şəhərinin qəhrəman Azərbaycan Ordusunun bölmələri tərəfindən düşməndən azad edildiyi gündür.*

Artıq dördüncü ildir ki, qədim Azərbaycan torpağı olan Füzuli öz hürriyyətinə qovuşub. Şəhər və rayonun böyük bir hissəsi 1993-cü il avqustun 23-də Birinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 1994-cü ildə rayonun müəyyən bir ərazisi ulu öndər Heydər Əliyevin Ali Baş Komandanlığı ilə yenidən Azərbaycanın nəzarətinə qaytarıldı. Silahlı Qüvvələrin həyata keçirdiyi uğurlu Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun 21 kəndi və Horadiz qəsəbəsi (23 oktyabr 2007-ci ildə şəhər statusu verilib) erməni işğalından təmizləndi.

Füzuli rayonu Azərbaycan tarixində özünəməxsus yeri olan qədim və zəngin bir diyardır.

1827-ci ilin sentyabrında Qarabulaq adı ilə yaradılan bu ərazi 1930-cu ildə rayon statusu alaraq Qaryagin adlandırılıb. Lakin 1959-cu ilin aprelində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 400 illik yubileyi şərəfinə rayonun adı dəyişdirilərək Füzuli adlanıb. 1386 kvadratkilometr ərazisi ilə Füzuli rayonu təxminən 135 min nəfərlik əhalisi ilə ölkəmizin mühüm bölgələrindən biridir. Burada 46 inzibati ərazi dairəsi mövcuddur. 2 şəhər, 17 qəsəbə və 81 kənd, o cümlədən Füzuli şəhəri, Horadiz şəhəri, Böyük Bəhmənli, Horadiz və Qacar kimi iri yaşayış məntəqələri xüsusi əhəmiyyət daşıyır.

Füzuli rayonu həm də qədim tarixə malikdir. Dünyanın ən qədim insan məskənlərindən biri olan Azıx və Tağlar mağaraları məhz bu ərazidə yerləşir. Bu qiymətli abidələr UNESCO-nun maddi-mədəni irs siyahısında yer almaqla Füzulinin tarixi və mədəni əhəmiyyətini daha da artırır.

**(davamı 3-cü səhifədə)**

# Ən müasir şəhərlərdən biri

**17 oktyabr Füzuli Şəhəri Günüdür**













**(əvvəli 1-ci səhifədə)**

Füzuli 27 illik işğal dövründə ermənilər tərəfindən tamamilə dağıntı və talana məruz qalıb. Rayon ərazisində demək olar ki, bir tikili belə yararlı vəziyyətdə saxlanmayıb. Dövlət başçısının "Füzulidə bir dənə də bina tapılmadı ki, orada

27 sentyabr 2020-ci ildə düşmən təxribatına cavab olaraq Azərbaycan Ordusu bölmələrinin bütün təmas xətti boyunca əks-hücum əməliyyatları aparması dünyanın nəzərini yenidən Qarabağa yönəltdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə "Dəmir yumruq" əməliyyatına başlayan silahlı qüvvələrimiz Ermənistan ordusunun keçilməz adlan-

və bunun nəticəsində düşmənin canlı qüvvəsi məhv edildi. Müharibənin ilk günü Azərbaycan ordusu tarixi zəfərlərə imza atdı. Füzuli istiqamətində Horadiz, Qərvənd və Qaraxanbəyli kəndləri, Cəbrayılda isə Böyük Mərcanlı və Nüzgar kəndlərinin azad edilməsi düşmən cəbhəsinin yarılması ilə nəticələndi. Kəlbəcərin möhtəşəm Murovdağ zirvəsinin

qımıza qürurverici xəbəri çatdırdı. - Füzuli şəhəri və rayonun daha 7 kəndi işğaldan azad edildi! Bu tarixi zəfərin bir parçası olan kəndlər - Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı və Dədəli artıq işğalçıdan təmizləndi. Bu xəbər xalqımıza güc və ümid verdi, Azərbaycan ordusunun irəliləyişi qələbənin yaxın olduğunu bir daha göstərdi. İllərlə həsrətlə gözlənilən bu gün Prezident İlham Əliyevin qətiyyəti və qəhrəman əsgərlərimizin fədakarlığı sayəsində gerçəkləşdi. Azərbaycanın Vətən müharibəsində düşmən üzərində qazandığı möhtəşəm zəfərdən cəmi 6 gün sonra, 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli rayonuna səfər etdilər. Füzuli şəhərində Müzəffər Ali Baş Komandan İlham Əliyev şanlı Azərbaycan bayrağını ucaldaraq tarixi torpağımızın azadlığını dünyaya bəyan etdi.

Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlarla bir qrup hərbi qulluqçu "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi. Bu cəsur igidlər Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında fəal iştirak edərək şəxsi qəhrəmanlıq və şücaət göstəriblər.

Füzuli şəhəri işğaldan azad edildikdən sonra Böyük Qayıdışın icra edildiyi ilk ərazilərdən biridir. 2040-cı ilə qədər Füzuli şəhəri ta-

ərazilərdə ən böyük və müasir şəhərlərdən biri olacaq. Füzulinin inkişafı üçün "Ağıllı şəhər" konsepsiyası tətbiq edilir. Bu konsepsiya rəqəmsal həllərdən istifadə edərək, ənənəvi şəbəkə və xidmətlərin daha səmərəli işləməsini təmin edəcək. Şəhərdə orta və azmərtəbəli yaşayış binaları, həyətyanı sahələri olan fərdi evlər inşa ediləcək, sakinlər üçün rahat və müasir həyat şəraiti yaradılacaq. Təhsil, səhiyyə, mədəniyyət və istehsalat müəssisələri, rekreasiya zonaları, parklar şəhərin dinamik inkişafına töhfə verəcək.

Şəhərdə üç müasir yaşayış kompleksi tikilir, burada ümumilikdə 2462 mənzil olacaq. Təxminən 22,5 hektar ərazidə isə Mərkəzi park yaradılacaq. Bu parkda istirahət zonaları, botanika bağı, meşəlik ərazilər, piknik və idman meydançaları, "Poeziya" meydanı və amfiteatr sakinlərin ixtiyarında olacaq. Füzuli Memorial Kompleksi də burada tikiləcək, dağıdılmış binaların xarabalıqları olduğu kimi saxlanılacaq və İşğal və Zəfər muzeyləri qurulacaq. Bundan əlavə, 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanası ən müasir tibbi avadanlıqla təchiz olunacaq və burada yüksək səviyyədə müayinə və müalicə xidmətləri göstəriləcək.

Artıq 2023-cü il avqustun 23-də ilk olaraq 90 nəfərdən ibarət olan 23 ailə doğma şəhərinə qayıdıb. Hazırda isə 823 ailə 3136 nəfər dövlət tərəfindən şəhərdə məskunlaşdırılıb. Şəhərdə 38 çoxmərtəbəli bina inşa edilir, bunların arasında 4, 5, 6 və 7 mərtəbəli binalar yer alır. Baş plana uyğun olaraq şəhərdaxili yolların ümumi uzunluğunun 87 kilometrdən çox olması nəzərdə tutulub. Bu layihələr Füzuli rayonunun hərtərəfli inkişafına xidmət edir və onun müasir yaşayış məntəqəsi kimi yenidən qurulmasına imkan yaradır.

Füzuli şəhəri ilə yanaşı, kəndlərdə də bərpa və yenidənqurma aparılır. Füzulinin Dövlətyarlı kəndində hazırlıq işləri tamamlanıb və bu kənd "ağıllı kənd" layihəsi kimi inşa ediləcək. Tikintinin 1-ci mərhələsində Dövlətyarlı kəndində 450 fərdi evin tikintisi nəzərdə tutulur. Kəndlərdə müasir infrastruktur yaradılır, alternativ enerji mənbələri və "yaşıl enerji"dən istifadə edilməsinə xüsusi diqqət yetirilir. Məktəblər, uşaq bağçaları, kənd meydanları və bazarlarla zəngin infrast-